Respublika

28 noyabr / 2021

Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi, qüdrətli söz ustası Aşıq Ələsgər 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Ələsgər xüsusi təhsil almasa da, el məclislərində hədislərə, nağıllara, dastanlara böyük maraq göstərmiş, eşitdiklərini güclü yaddaşında saxlamışdır. El aşıqlarının məclisləri, toy-şənliklər onda saza, sözə ciddi maraq oyatmış, ilk şeirlərinin yaranmasına səbəb olmuşdur.



Aşıq Alıdan aldığı ustad dərsləri Ələsgərin sənətkar kimi püxtələşməsində böyük rol oynamışdır. Çox keçməmiş Aşıq Ələsgərin apardığı məclislərin sorağı hər tərəfə yayılmış, o, Göyçə ilə yanaşı, İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncə, Kəlbəcər

# Aşıq sənətinin mahir ustadı

və digər yerlərə toy, şadlıq məclislərinə dəvət edilmişdir. Aşıq sazı, sözü, ədəb-ərkanı ilə el-oba içində ustad sənətkar kimi böyük şöhrət qazanmışdır.

1918-1919-cu illərdə erməni daşnaklarının Göyçə mahalında törətdiyi qırğın nəticəsində Aşıq Ələsgər ailəsi ilə birlikdə Kəlbəcərin Yanşaq kəndinə, oradan da Tərtərə köçmüşdür. İki il sonra doğma kəndinə qayıdan aşıq ömrünü burda başa vurmuş, 1926-cı ildə vəfat etmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilmiş, qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmış, Azərbaycan Elmlər Akademiyası tərəfindən əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Bu il Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 18 fevral 2021-ci il tarixdə imzalanan Sərəncama əsasən respublikamızın bütün bölgələrində böyük sənətkarın yubiley mərasimləri keçirilir.

Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin yaradıcılığına nəzər salınmış əsərlərinin vətənpərvərlik, insanseverlik, el-obaya bağlılıq kimi yüksək insani keyfiyyətləri təcəssüm etdirən mükəmməl xəzinə olduğu vurğulanmışdır.

Tədbir çərçivəsində Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin kollektivinin ifasında Aşıq Ələsgərin yaradıcılığına həsr olunmuş musiqili proqram təqdim edilmişdir.

T.YADULLAOĞLU,
"Respublika".